**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

Əlyazması hüququnda

**SEVINC SABIR QIZI RZAYEVA**

# MƏŞĞULLUQ SAHƏSİNDƏ GENDER BƏRABƏRLİYİNİN TƏMİN EDİLMƏSİ (AZƏRBAYCAN RESPUBLIKASI TIMSALINDA)

**İxtisas : 5308.01–" Ümumi iqtisadiyyat"**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2013**

Dissertasiya işi AMEA-nın İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər**: AMEA-nın müxbir üzvü, i.e.d.,prof.
Ş.M.Muradov

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru A.Ə.Salmanov
iqtisad üzrə fəlsəfə doktoru Q.B.Hacıyev

**Aparıcı təşkilat:** **Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi**

Müdafiə «28 » .06 2013- cü il tarixində saat - da Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu nəzdində FD 01.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az11143, Bakı şəhəri, H.Cavid prospekti 31, 2-ci mərtəbə, AMEA İqtisadiyyat İnstitutu.
Dissertasiya işi ilə AMEA İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» _______2013-cü ildə göndərilmişdir.

FD.01.181 Dissertasiya Şurasının
Elmi katibi, i.f.d.,dosent **G.S. Hacıyeva**

## İşin ümumi xarakteristikası

**Mövzunun aktuallığı**. Gender bərabərliyi hər bir demokratik cəmiyyətin ən mühüm prinsiplərindəndir. Hal-hazırda dünyanın bir çox ölkələrində həyatın bütün sahələrində, o cümlədən məşğulluq sahəsində gender problemlərinin ciddiliyi tam mənası ilə qəbul edilməkdədir. Keçən əsrin 70-ci və 80-ci illərində bütün dünya üzrə qadınların iqtisadi fəallığının olduqca yüksəldiyi müşahidə olunmuşdur. Bütün bunlar, yəni qadınların imkanlarının və iqtisadi müstəqilliyinin genişlənməsi böyük ölçüdə gender bərabərliyinə nail olunmasına ümid etməyə imkan verir.

Bir sıra inkişaf etmiş Avropa ölkələrində gender ayrı-seçkiliyinin aradan qaldırılması, kişi və qadınlar arasında real sosial bərabərliyin yaradılması üzrə uğurlu milli siyasətin formalaşdırılması sahəsində yetərli səviyyədə zəngin təcrübə toplanılmışdır. Hal-hazırda müasir Avropa cəmiyyətində qadınlar demək olar ki, bütün ictimai sahələrdə, o cümlədən ənənəvi olaraq kişi ixtisaslarına aid olduğu hesab edilən ən mürəkkəb sahələrdə də çalışmaqdadırlar. Onlar biznesdə, maliyyə işlərində, siyasi və hərbi sferada iştirak edir və fəal rol oynayırlar.

Azərbaycanda gender bərabərliyinin təmin edilməsi işində əldə edilmiş nailiyyətlər əsasən iki cəhətlə bağlı olmuşdur. Birincisi, gender bərabərliyinin təmin edilməsi və onun dinamikası nüfuzlu beynəlxalq təşkilatlar (BMT, İslam konfransı təşkilatı, ATƏT, Avropa Şurası və s.) tərəfindən bütün ölkələrin rəhbərləri qarşısında qoyulan öhdəliklərlə bağlıdır. Bu baxımdan Azərbaycan Respublikasının BMT-nin Pekində həyata keçirdiyi Ümumdünya qadınlar konfransının “fəaliyyət platforması”nı və “Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi konvensiyası”nı qəbul etməsi gender bərabərliyinin təmin edilməsi istiqamətində görülən işlər və beynəlxalq səviyyədə öhdəliklərin yerinə yetirilməsi kimi qiymətləndirilə bilər. 2000-ci ildə BMT-nin üzvü olan 189 ölkə Minilliyin Sammitində səkkiz məqsəd və 18 vəzifədən ibarət olan Minilliyin Bəyannaməsini imzalamışdır. Azərbaycan da bu sənədə imza ataraq problemlərin aradan qaldırılması üçün öhdəliklər götürmüşdür. Xatırladaq ki, Minilliyin 8 inkişaf məqsədindən biri “Gender bərabərliyini təmin etmək və qadınlara səlahiyyət vermək”dən ibarətdir. Onu da qeyd edək ki, 2010-cu ilin may ayında Avropa Şurasının qadınlarla kişilər arasında bərabərlik üzrə 7-ci Avropa Nazirlər Konfransının məhz Bakıda keçirilməsi ölkəmizin gender problemlərinin həllinə önəm verən dünyanın nüfuzlu ölkələri sırasında durmasını sübuta yetirir.

İkincisi, Azərbaycanda hökumətin gender bərabərliyinin təmin edilməsi üzrə fəaliyyəti təkcə beynəlxalq öhdəliklərlə deyil, həm də qloballaşan dünyada daha yüksək inkişafa nail olmaq və cəmiyyətdə cərəyan edən ciddi problemlərin həlli üçün real şəraitin yaradılması ilə bağlıdır. Ölkəmizdə başlamış fəaliyyət spektrinə gender bərabərliyi aspektlərinin dövlət proqramlarına və fəaliyyət planlarına salınması, o cümlədən inkişaf sahəsindəki məsələlərin həllində qadınların daha geniş iştirakını stimullaşdırmaqla məşğul olan dövlət qurumlarının yaradılması daxildir. Qadınların təhsilə, məşğulluğa, istehsal resurslarına və s. yiyələnmə imkanlarının genişlənməsi yolunda da ciddi addımlar atılmışdır.

1999, 2003 və 2008-ci illərdə Bakıda keçirilmiş Azərbaycan qadınlarının üç qurultayı, qadın problemləri ilə məşğul olan onlarla dövlət strukturları və 90-a yaxın qeyri-hökumət qadın təşkilatlarının rəsmi şəkildə fəaliyyət göstərməsi gender bərabərliyinin təmin edilməsi məsələsinə olan diqqətin və önəmin parlaq təzahürüdür.

Azərbaycan Respublikasında məşğulluq sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, ölkədə əmək bazarının inkişaf etdirilməsi, yeni iş yerlərinin açılması və əhalinin məşğulluğunun səmərəliliyinin təmin edilməsi məqsədilə 2005-ci il oktyabrın 26-da Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Fərmanı ilə «Azərbaycan Respublikasında məşğulluğun strategiyası (2006-2015-ci illər)Dövlət Proqramı, 2006-cı il oktyabrın 10-da «Gender (kişi və qadın) bərabərliyinin təminatları haqqında» Qanun qəbul edilmişdir. Həmin Qanunda göstərilir ki, Azərbaycan hökuməti cinsi mənsubiyyətə görə diskriminasiyanın bütün formalarının aradan qaldırılması, qadınlara kişilərlə bərabər imkanların yaradılması, dövlət idarəçiliyi və qərarların qəbul edilməsində bu və ya digər cinsin nümayəndəliyinin üstünlüyünə yol verilməməsi üzrə tədbirləri həyata keçirsin. Şübhəsiz ki, gender bərabərliyinin təmin edilməsi sahəsində hər bir ölkənin öz inkişaf yolu və konkret, özünə məxsus xüsusiyyətləri var. Bu, öz növbəsində hər bir ölkənin mövcud şəraitini, tarixini, sosial-iqtisadi, siyasi, demoqrafik, etnik və dini xüsusiyyətlərini nəzərə almaqla gender bərabərliyini təmin etmək üçün elmi araşdırmaların aparılmasını zəruri edir.

Azərbaycan iqtisadiyyatının uğurlu inkişafı, məşğulluğun sosial-iqtisadi problemlərinin həlli, habelə qəbul edilmiş konsepsiya və tövsiyələrin həyata keçirilməsi, ölkəmizin dünyanın nüfuzlu demokratik ölkələri sırasına daxil olması məşğul əhalinin hazırkı strukturunun öyrənilməsini, mövcud çatışmazlıqların müəyyən edilməsi və gender bərabərliyi baxı-

mından əhalinin məşğulluğunun tənzimlənməsinin təkmilləşdirilməsi üzrə konkret elmi-əsaslandırılmış təkliflərin işlənib hazırlanmasını tələb edir. Bəhs olunan problemin aktuallığı onun seçilməsini, dissertasiya işinin məqsəd və vəzifələrini müəyyən etmişdir.

**Problemin öyrənilmə səviyyəsi.** Həm xaricdə, həm də ölkəmizdə iqtisadçı alimlər tərəfindən əhalinin məşğulluğu sahəsində gender bərabərliyinin təmin edilməsi problemlərinin müxtəlif aspektləri üzrə çoxlu sayda elmi tədqiqatlar aparılmışdır. Azərbaycanın iqtisadçı alimlərindən problemlərin nəzəri və praktiki məsələləri M.M.Allahverdiyev, Ş.M.Muradov, T.Ə.Quliyev, C.B.Quliyev, G.A. Əzizova, R.Ş.Muradov, A.Q. Gözəlova və başqalarının əsərlərində öz əksini tapmışdır.

Xarici ölkə alimlərindən A.E.Kotlyarın, V.Q.Kastakovun, M.Y. Soninin, İ.S.Maslovanın, Y.V.Koçkinanın, Y.B.Mezensevanın, T.V.Barçunovanın, V.V.Bedrinanın, L.L.Ribsovanın və digərlərinin əsərləri əmək sferasında məşğulluğun ümumi nəzəri və praktiki məsələlərinin gender stereotiplərinin tədqiqinə həsr edilmişdir.

Hazırda əhalinin məşğulluğu sahəsində gender bərabərliyinin təmin edilməsinin müxtəlif aspektləri haqqında müəyyən elmi təsəvvürün formalaşmasına baxmayaraq, bu sahədə irəli sürülmüş ideyaların əksəriyyəti qeyd edilən problemin inkişaf etməkdə olan inteqrasiya prosesləri və qloballaşma kontekstində tədqiqini əhatə etmir. Digər tərəfdən Azərbaycan üçün bir müstəqil dövlət kimi bazar iqtisadiyyatı şəraitində əhalinin əmək və məşğulluq sahəsində gender bərabərliyinin real olaraq təmin edilməsi böyük əhəmiyyət kəsb edir. Bu isə yalnız elmi təməllər əsasında əmək bazarındakı gerçəklər nəzərə alındıqda mümkün ola bilər. Bütün bunlar şəraitin dəyişməsini nəzərə almaqla Azərbaycanın timsalında məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsi problemləri üzrə elmi araşdırmaların davam etdirilməsi zərurətini ortaya qoyur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsinin sosial-iqtisadi aspektləri, qanunvericilik bazasının öyrənilməsi əsasında onun yaxşılaşdırılması üzrə təklif və tövsiyələrin işlənib hazırlanmasıdır.

Dissertasiya işinin məqsədinə uyğun olaraq aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- müasir dünyada kişi və qadınların məşğulluğunun rolu və əhəmiyyətini sistemli şəkildə araşdırmaq;
- dünyanın müxtəlif ölkələrində məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsi təcrübəsini öyrənmək;

- Azərbaycanda məşğulluğun gender  xüsusiyyətlərinin öyrənmək;
- Azərbaycanda əhalinin əmək fəallığının dövlət tərəfindən tənzimlənməsinin gender təhlilini aparmaq;
- Azərbaycanda əhalinin məşğulluq strukturunu təhlil etmək;
- məşğulluq sahəsində gender bərabərliyinin yaxşılaşdırılması amili kimi fasiləsiz təhsilin rolunu tədqiq etmək;
- ölkəmizdə məşğulluq sahəsində gender bərabərliyinin əldə edil məsi imkanları və perspektivlərini müəyyən etmək;
- Azərbaycanda əhalinin məşğulluğu sahəsində gender bərabərliyi nin təmin edilməsi üzrə elmi cəhətdən əsaslandırılmış təkliflər işləyib hazırlamaq.

**Tədqiqatın obyekti** Azərbaycan Respublikasının əməkqabiliyyətli qadın və kişi əhalisidir.

**Tədqiqatın predmetini** Azərbaycanda əhalinin məşğulluğu sahəsində gender bərabərliyinin təmin edilməsi məsələləri təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** iqtisadi nəzəriyyə klassiklərinin, xarici və yerli alimlərin gender problemləri üzrə, o cümlədən qadın məşğulluğu üzrə əsərləri; Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının “Məşğulluq haqqında” Qanunu, AR-nın Əmək Məcəlləsi, AR-nın Cinayət Məcəlləsi, “Qadınlara qarşı münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” konvensiya, “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” Fərman, “Gender (kişi və qadın) bərabərliyinin təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu, “Azərbaycan Respublikasının Məşğulluq strategiyası (2006-2015)”, “Yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Proqram (2006-2015)”, “Azərbaycan regionlarının sosial - iqtisadi inkişaf Proqramı (2004-2008)”, “Ailə və qadın problemləri üzrə milli fəaliyyət planı (2007-2010)”, BƏT-in konvensiyaları təşkil edir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatları, Beynəlxalq Əmək Təşkilatının materialları, Azərbaycan MEA İqtisadiyyat İnstitutunun tədqiqatları təşkil edir.

Tədqiqat işində sistemli təhlil, müqayisə, statistik qruplaşdırma və digər iqtisadi-statistik metodlardan istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

– məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsinin nəzəri əsasları sistemli şəkildə öyrənilmişdir;
– dünya təcrubəsinə əsaslanaraq məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsinin nəzəri əsasları araşdırılmış və ümumiləşdirilmişdir;
– Azərbaycanda əhalinin məşğulluğu sahəsində gender bərabərliyinin xüsusiyyətləri müəyyən edilmişdir;
– Azərbaycanda əhalinin əmək fəallığının dövlət tənzimlənməsinin gender təhlili qiymətləndirilmişdir;
– Azərbaycanda məşğulluq sahəsində gender bərabərliyinin vəziyyəti təhlil edilib qiymətləndirilmişdir;
– Gender bərabərliyinin yaxşılaşdırılması istiqaməti kimi fasiləsiz təhsilin rolu müəyyənləşdirilmişdir;
– Azərbaycanda məşğulluq sferasında gender bərabərliyinə nail olma imkanları və perspektivləri müəyyən edilmişdir;
– gender bərabərliyi baxımından məşğulluğun tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri üzrə elmi cəhətdən əsaslandırılmış təkliflər işlənib hazırlanmışdır.

**Tədqiqat işinin praktiki əhəmiyyəti.** Dissertasiya işindəki əsas nəticələr və konkret təkliflərdən bir sıra dövlət orqanları, o cümlədən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Baş Məşğulluq İdarəsi, Əmək üzrə Baş İnspeksiya, eləcə də məşğulluğun rayonlar üzrə xidmət orqanları faydalana bilər. Bundan başqa dissertasiyanın geniş statistik materiallara əsaslanan əsas müddəaları və çap olunmuş elmi materialları Azərbaycanda gələcəkdə məşğulluq üzrə proqramların işlənib hazırlanmasında, eyni zamanda ali təhsil müəssisələrinin tədris proseslərində "İqtisadiyyat və əməyin sosiologiyası", "Demoqrafiya" və gender məsələlərinin öyrənilməsi ilə bağlı olan digər fənlərin tədrisində istifadə oluna bilər.

**Aprobasiya və tədqiqatın nəticələrinin tətbiqi.** Dissertasiyanın əsas müddəaları elmi – praktiki konfranslarda məruzə və müzakirə edilmişdir. Dissertasiya işində irəli sürülən əməli təkliflər Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edilmişdir. (18 iyun 2012-ci il tarixli 04/157 nömrəli arayış).

**Çap olunmuş əsərlər.** Dissertasiya işinin mövzusu üzrə 5 məqalə və 1 tezis nəşr edilmişdir.

**Dissertasiyanın strukturu və həcmi.** İş girişdən, 3 fəsildən, 7 paraqrafdan, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarət, olmaqla 18 cədvəli özündə əks etdirir.

**Tədqiqatın əsas məzmunu.**

Girişdə mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi və praktiki əhəmiyyəti, nəzəri və metodoloji əsasları, tədqiqatın obyekti, informasiya bazası, işin aprobasiyası göstərilir.

Tədqiqatın **"Məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsinin elmi-nəzəri və praktiki aspektləri"** adlanan birinci fəslində qadın və kişi məşğulluğunun nəzəri əsasları, müxtəlif ölkələrdə məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsi məsələləri araşdırılır, Azərbaycanda məşğulluq sahəsində gender probleminin xüsusiyyətləri tədqiq edilir.

Qeyd edilir ki, qloballaşan dünyada gender bərabərliyinin təmin edilməsi istiqamətində qadınlar arasında işsizliyin azaldılması, yoxsulluğun aradan qaldırılması, qadınların təhsil səviyyəsinin yüksəldilməsi beynəlxalq təşkilatlar və ayrı-ayrı dövlətlər tərəfindən həyata keçirilən tədbirlərin əsasını təşkil edir.

Müasir dünyanın əksər ölkələrində gender bərabərliyi hüququ baxımdan təmin edilmişdir. Faktiki olaraq, gender bərabərliyinin təmin edilməsi istiqamətində beynəlxalq təşkilatlar və inkişaf etmiş ölkələrin fəaliyyəti (o cümlədən hər iki cinsdən olan insanların potensial imkanlarını tam açmağa, bərabər formada resurslardan istifadə etməyə və gəlir əldə etməyə və s. sosial-iqtisadi proseslərdə gender bərabərliyinin təmin edilməsinə yönəldilmiş fəaliyyəti) yalnız XX əsrin son onilliyindən başlayaraq müşahidə olunmaqdadır.

Məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsinə obyektiv və subyektiv maneələr təsir göstərir. Bəzi subyektiv maneələrin aradan qaldırılması çətin olsa da mümkündür, ancaq obyektiv maneələri dəff etmək bəzən mümkün olmur. Belə ki, məşğulluq sahəsində işlərin mexanikləşdirilməsi, avtomatlaşdırılması, kompüterləşdirilməsi kişi və qadın işçiləri arasında bioloji fərqləri azaldır və yox edir. Ancaq dünyaya gələn uşağa 1,5 və ya 3 yaşa qədər qulluq etməklə qadınların analıq funksiyasını yerinə yetirməsi qadın məşğulluğuna böyük təsir edir. Analıq funksiyası ilə məşğulluq arasında yaranan ziddiyyət obyektiv və daimi xarakter daşıyır. Şübhəsiz ki, texniki tərəqqinin heç bir nailiyyəti, o

cümlədən ev təsərrüfatında, səhiyyədə və digər hər hansı bir sahədə misilsiz dərəcədə dəyişikliklər əhalinin artımı, yeniləşməsi, yeni nəslin formalaşması və sosial uyğunlaşması prosesində ananın əməyini əvəz edə bilməz. Məhz buna görə, analar adətən öz əmək potensialını həyatda tam reallaşdıra bilmir və ictimai həyatın bəzi sahələrində, o cümlədən məşğulluq sahəsində kişilərə nisbətən məhdud inkişaf imkanlarına malikdirlər. Bununla yanaşı bu gün qadın iş qüvvəsinin kəmiyyət və keyfiyyət xassələri xeyli yaxşılaşmış, məşğulluq sahəsində üfüqi və şaquli seqreqasiyada müəyyən meyllər formalaşmış, əhalinin həyat dəyər sistemində mütərəqqi dəyişikliklər baş vermiş, köhnəlmiş milli adət-ənənələr təsir qüvvəsini itirmiş, kişi və qadın əmək fəaliyyəti növlərinin qovuşması, qadınların idarəçilik səviyyəsi artmışdır.

Müxtəlif ölkələrdə məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsi təcrübəsinin tədqiqi göstərmişdir ki, son 30 ildə bu ölkələrdə gender bərabərliyinin təmin edilməsi üçün lazımi hüquqi baza yaranmışdır, ölkələrin əksəriyyəti qadınlara qarşı bütün diskriminasiya formalarının ləğv edilməsi haqqında (SEDAW) BMT-nin Konvensiyasını imzalamış və ratifikasiya etmişdir, bir çox ölkələrdə gender bərabərliyi haqqında qanunların qəbul edilməsi yolunda gələcək fəaliyyət istiqamətlərini müəyyən edən milli siyasət strategiyası və konsepsiyası işlənib hazırlanmışdır, bütün ölkələrdə nazirlik səviyyəsində gender bərabərliyi məsələləri ilə məşğul olan bölmələr, idarələr, bürolar və məsul şəxslər mövcuddur, qadınların ən yüksək dövlət vəzifələrinə təyin edilməsində irəliləyiş müşahidə olunur. Eyni zamanda ölkələr arasında gender bərabərliyi sahəsində ciddi fərqlər mövcuddur, əksər ölkələrdə de yure və de fakto bərabərliyi arasındakı uyğunsuzluq yüksək olaraq qalmaqdadır.

Aparılan təhlil göstərir ki, bir çox ölkələrin parlamentlərində qadınların xüsusi çəkisi durmadan artır. Bu hal həmin ölkələrin siyasi partiyalarının nizamnamələrinə gender kvotaları haqqında əsasnamənin daxil edilməsi ilə izah oluna bilər. Koreya, Bosniya-Herseqovina, Serbiya və bir sıra digər ölkələrdə kvotalar haqqında əsasnamə qəbul edildikdən sonra ali orqanlarda qadın təmsilçiliyi nəzərə çarpacaq şəkildə yüksəlmişdir.

İnkişaf etmiş ölkələrdə demokratiyanın inkişafı birbaşa olaraq qadınların siyasətdə və iqtisadiyyatda iştirakının genişlənməsi və köhnəlmiş gender stereotiplərin dağılması ilə əlaqələndirilir. Deputat korpusunun tərkibində qadınların xüsusi çəkisi 20% olduqda uşaqların maraqlarına uyğun olan layihələrin ciddi yer alması, 30%-ə yaxın olduqda qadın-

ların maraqlarına cavab verən qanunlar və dövlət proqramlarının qəbul edilməsi müşahidə olunur.

Gender bərabərliyi siyasəti sahəsində bərabərlik prinsiplərinə və sosial demokratiyaya bağlılığın dərin kökləri olan Skandinaviya ölkələri liderlik edir. Gender siyasətinin reallaşdırılması baxımından isə bu ölkələr arasında İsveç xüsusi yer tutur. Artıq 1995-ci ildə qadınlar İsveçin parlamentdəki yerlərinin 50%-dən çoxunu tuturdu. Lakin hətta gender bərabərliyi siyasətinin reallaşması üçün mükəmməl mexanizmin yaranmasına baxmayaraq, Skandinaviya ölkələrində belə cinslərin bərabərliк məsələsi tam həll olunmayıb.

Tam gender bərabərliyinə nail olmaq məsələlərini araşdırarkən müəllif belə bir fikri əsaslandırır ki, bu istiqamətdə kompleks şəkildə yalnız dövlət siyasətinin həyata keçirilməsi kifayət edə bilməz, burada gender bərabərliyi ideyasının və onunla bağlı dəyərlərin ictimai həyatın normasına çevrilməsi tələb olunur.

XX əsrin sonu XXI əsrin əvvəllərini əhatə edən dövrdə Azərbaycanda bazar münasibətlərinin yaranması, qloballaşma prosesinin güclənməsi ilə yanaşı dərin sosial-iqtisadi dəyişikliklər baş vermişdir. Belə ki, əhalinin demoqrafik davranışında, onun həyat dəyər sistemində, əmək və ərazi mobilliyində və s. köklü dəyişikliklər baş vermişdir. Məşğulluq sahəsində kiçik və orta biznesin genişlənməsi, qadın sahibkarlığının güclənməsi, kişi və qadınların əmək miqrasiyasının artması, iqtisadiyyatın qeyri-dövlət, qeyri-formal və əsas iş yerindən başqa əlavə iş yerlərində məşğulluğun artması baş vermişdir.

Azərbaycanda keçmişdən qalan stereotiplərin milli adət-ənənələr kimi əhalinin həyatına əvvəllərdə olduğu təsiri zəifləmiş və yeni sosial-iqtisadi şərait əhalinin həyat stereotiplərinin dəyişməsinə səbəb olmuşdur. Qadınların evdən kənarda məşğulluğuna, onların yüksək səviyyədə təhsil almasına, vəzifə pillələri ilə irəliləməsinə, ailənin ümumi gəlirlərinin tərkibində qadının xüsusi çəkisinin yüksək olmasına, qadının əmək haqqının kişininkindən yüksək olmasına, analığın peşəkar fəaliyyətlə uyğunlaşdırılmasına, ailə gəlirlərinin bölgüsündə qadının iştirak etməsinə və s. olan münasibətdə əhalinin düşüncəsində kök salmış fikirlər dəyişməyə başlayır.

Tədqiqat işinin **"Azərbaycanda əhalinin məşğulluğunun tənzimlənməsinin təhlili"** adlanan ikinci fəslində qloballaşma şəraitində Azərbaycanda əhalinin əmək fəallığının dövlət tənzimlənməsinin gender

vəziyyəti və əhalinin məşğulluq sahəsində gender bərabərliyinin statistikası təhlil edilib qiymətləndirilmişdir.

Son illərdə Azərbaycan əhalisinin əmək fəallığının dövlət tənzimlənməsinin təhlili göstərmişdir ki, respublikada gender bərabərliyi sahəsində xeyli irəliləyişə nail olunmuş, ölkə rəhbərliyinin mövqeyi və fəaliyyəti isə bu problemə konstruktiv münasibətilə xarakterizə olunmuşdur. Azərbaycanda əmək sferasında və əhalinin məşğulluğunda kişi və qadınların hüquq bərabərliyinə aid qanunvericilik Azərbaycan Respublikası Konstitusiyası, Qadınlara qarşı bütün ayrı-seçkilik formalarının ləğv edilməsi haqqında Konvensiya, "Gender (kişi və qadın) bərabərliyinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasında məşğulluq strategiyası (2006-2015 illər), Əmək məcəlləsi, beynəlxalq əmək qanunvericiliyinin işlənməsi və tətbiqi missiyasını yerinə yetirən Beynəlxalq Əmək Təşkilatı (BƏT) və BMT-nin bir sıra tövsiyə və öhdəliklər əsasında təhlil edilir ki, gender bərabərliyinin təmin edilməsinə yönələn və təkmilləşməkdə olan hüquqi mexanizmin olmasına baxmayaraq Azərbaycanın əmək bazarında qadınların vəziyyəti hələ də mürəkkəbdir. Bu baxımdan dövlətin sosial-iqtisadi siyasətinin daha da təkmilləşdirilməsi, idarəedici və tənzimləyici gender ekspertizası əsasında hərtərəfli elmi araşdırmaların davam etdirilməsini tələb edilir.

Azərbaycan Respublikasında məşğulluq sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, ölkədə əmək bazarının inkişaf etdirilməsi, yeni iş yerlərinin açılmasının sürətləndirilməsi və əhalinin məşğulluğunun səmərəliliyinin təmin edilməsi məqsədilə 2005-ci il oktyabrın 26-da Azərbaycan Respublikası Prezidenti İlham Əliyev «Azərbaycan Respublikasında məşğulluğun strategiyası (2006-2015-ci illər)» adlı 1068 saylı fərmanına imza atmışdır.

BMT-nin və BƏT-in ekspertizasından keçmiş məşğulluq strategiyası iki mərhələdə reallaşdırılır. Birinci mərhələni əhatə edən 2007-2010-cu illərdə işsizliyin kəskin şəkildə azaldılması, işsizlərin və əhalinin kövrək təbəqəsinin sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının təkmilləşdirilməsinə yönələn addımların atılması, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması, rəqabət qabiliyyətinin və iqtisadi aktivliyinin yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması nəzərdə tutulmuşdur. 2011-2015-ci illəri əhatə edən ikinci mərhələdə yüksək beynəlxalq standartlara uyğun olan işgüzar şəraitin formalaşdırılması üçün işçi qüvvəsinə olan tələbatın stimullaşdırılmasına yönələn tədbirlərin

görülməsi; islahatların strukturunun daha da gücləndirilməsi investisiya fəallığının daha da canlandırılması və insan kapitalının inkişaf templərinin yüksək həddə çatdırılmasını təmin edəcək.

İctimai və əmək münasibətlərinin tənzimlənməsində Azərbaycan Respublikasının milli qanunvericiliyi ilə yanaşı ən vacib ünsür beynəlxalq əmək qanunvericiliyidir. Bu missiyanı əsasən Beynəlxalq Əmək Təşkilatı (BƏT) yerinə yetirir. BƏT-in gender bərabərliyinin kompleksli tədbiqi ilə bağlı olan fəaliyyəti qadın və kişilərin iqtisadi imkanlarının genişləndirilməsinə xidmət edən insan haqları strategiyasına əsaslanır ki, bu da bütün əməkçilərin haqlarının qorunması və təkmilləşdirilməsinin əsas vasitəsidir.

BƏT-lə yanaşı gender bərabərliyinin və onun tərəqqisinin təmin edilməsi məsələləri ilə bir çox başqa beynəlxalq təşkilatlar da məşğul olurlar. Onların arasında Avropanın yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı (AİB) və s. göstərmək olar.

Azərbaycanda əhalinin məşğulluğu sahəsindəki gender bərabərliyinin səviyyəsinin bir çox amillərin təsiri altında formalaşdığı göstərilir.

**Cədvəl 1**

**Azərbaycan Respublikasında qadın və kişilərin sayı**

| İllər | Sayi – min nəfər | | Cins bölgüsü | | 1000 nəfər kişiyə düşən qadınların sayı |
|---|---|---|---|---|---|
| | Qadınlar | Kişilər | Qadınlar | Kişilər | |
| 1990 | 3650,0 | 3481,7 | 51,2 | 48,8 | 1048 |
| 1995 | 3888,9 | 3754,6 | 50,9 | 49,1 | 1036 |
| 1996 | 3923,5 | 3802,7 | 50,8 | 49,2 | 1032 |
| 1997 | 3954,5 | 3845,3 | 50,7 | 49,3 | 1028 |
| 1998 | 3993,5 | 3883,2 | 50,7 | 49,3 | 1028 |
| 1999 | 4070,3 | 3883,1 | 51,2 | 48,8 | 1028 |
| 2000 | 4110,0 | 3922,8 | 51,2 | 48,8 | 1048 |
| 2001 | 4150,7 | 3963,6 | 51,2 | 48,8 | 1048 |
| 2002 | 4188,9 | 4002,45 | 51,1 | 48,9 | 1047 |
| 2003 | 4228,0 | 4041,1 | 51,1 | 48,9 | 1046 |
| 2004 | 4267,8 | 4081,2 | 51,1 | 48,9 | 1046 |
| 2005 | 4316,4 | 4130,9 | 51,1 | 48,9 | 1045 |
| 2006 | 4369,0 | 4184,0 | 51,1 | 48,9 | 1044 |
| 2007 | 4424,7 | 4211,2 | 51,1 | 48,9 | 1043 |
| 2008 | 4481,0 | 4298,1 | 51,0 | 49,0 | 1043 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2009 | 4538,6 | 4358,3 | 51,0 | 49,0 | 1041 |

Mənbə :Azərbaycanda qadınlar və kişilər, 2009, s.15.

Тящлил эюстярир ки, 1990-2009-cu illər ərzində Azərbaycan Respublikası əhalisinin sayı 1765,0 min nəfər və ya 24,7% , o cümlədən qadınların sayı 24,3%, kişilərin sayı isə 25,1% artmışdır. Kişilərin sayının qadınlara nisbətən daha çox artması əhalinin cinsi strukturunun bir qədər hamarlanmasına şərait yaratmışdır: 1990-cı ildə qadın və kişi əhalisinin nisbəti 51,2 : 48,8 təşkil edirdisə, 2009-cu ildə 51,0 : 49,0 təşkil etmişdir.

Məşğulluq sahəsində gender bərabərliyinin dəyişməsinə təsir göstərən digər önəmli xarakteristikalardan biri də iqtisadi fəal əhalinin cins quruluşudur. 2008-ci ildə Azərbaycan Respublikasında iqtisadi fəal əhalinin sayı 4318,2 min nəfər, onlardan 2127,5 min nəfəri və ya 49,3%-i qadın, 2190,7 min nəfəri və ya 50,7%-i kişi idi. Qeyd edək ki, mahiyyətcə məşğulluq sahəsində gender bərabərliyi dedikdə ilk növbədə iqtisadi fəal əhalinin qadın və kişi hissəsinin bərabərliyi nəzərdə tutulur. Xatırladaq ki, iqtisadi fəal əhalinin tərkibinə həm işləyən, həm də işsiz qalan kişi və qadınlar daxildir. 2008-ci ildə ölkə iqtisadiyyatında məşğul əhalinin sayı 4056,0 min nəfər təşkil edirdi, onlardan 2007,7 min nəfəri, yəni 49,5%-i qadın, 2048,3 min nəfəri və ya 50,5%-i kişilərdən ibarət idi.

**Cədvəl 2.**

**Azərbaycan Respublikasında iqtisadi fəal, məşğul və işsiz əhalinin sayı və cins bölgüsü**

| | 2000 | | 2005 | | 2008 | |
|---|---|---|---|---|---|---|
| | Sayı– min nəfər | Cins bölgüsü, % | Sayı– min nəfər | Cins bölgüsü, % | Sayı– min nəfər | Cins bölgüsü, % |
| İqtisadi fəal əhali | 3748,2 | 100,0 | 4168,0 | 100,0 | 4318,2 | 100,0 |
| Qadınlar | 1791,5 | 47,8 | 1986,5 | 47,7 | 2127,5 | 49,3 |
| Kişilər | 1956,7 | 52,2 | 2181,5 | 52,3 | 2190,7 | 51,7 |
| Məşğul olanlar | 3704,5 | 100,0 | 3850,2 | 100,0 | 4056,0 | 100,0 |
| Qadınlar | 1767,0 | 47,7 | 1832,8 | 47,6 | 2007,7 | 49,5 |
| Kişilər | 1937,5 | 52,3 | 2017,4 | 51,4 | 2048,3 | 50,5 |
| İşsizlər | 43,739 | 100,0 | 56,343 | 100,0 | 44,481 | 100,0 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Qadınlar | 24,456 | 55,9 | 29,078 | 51,6 | 20,873 | 46,9 |
| Kişilər | 19,283 | 44,1 | 27,265 | 48,4 | 23,608 | 53,1 |

Mənbə: Əmək bazarı, 2009, s.23.

Göründüyü kimi 2000-2008-ci illər ərzində məşğul əhalinin sayının artımı həm qadınların sayının artımı (240,7 min nəfər və ya 13,6%), həm də kişilərin sayının artımı (110,8 min nəfər və ya 5,7%) hesabına baş vermişdir. Ancaq qadınların sayının artımı kişilərə nisbətən 2,2 dəfə, artım templəri isə 2,4 dəfə çox olmuşdur. Həmin dövr ərzində işsizlərin ümumi sayı 43,7 min nəfərdən 44,5 min nəfərə yüksəlmişdir, yəni 0,8 min nəfər artmışdır. Lakin bu artım kişilərin hesabına baş vermişdir. Belə ki, bu dövrdə işsiz qadınların sayı 24,5 min nəfərdən azalaraq 20,9 min nəfərə düşmüşdür, işsiz kişilərin sayı isə əksinə, 19,3 min nəfərdən artaraq 23,6 min nəfərə yüksəlmişdir.

2003-2008-ci illəri əhatə edən dövrdə bütövlükdə ölkə üzrə əhalinin iqtisadi fəallığının səviyyəsinin yüksəlməsi kişilərin və qadınların məşğulluq səviyyəsinin yüksəlməsinin, eləcə də onlar arasında işsizlik səviyyəsinin azalmasının nəticəsidir. Bu dövrdə həm şəhər, həm də kənd yerlərində analoji proseslərin getdiyi müşahidə olunur. Belə ki, şəhər yerlərində məşğulluğun səviyyəsi 83,7%-dən 95,4% -ə yüksəlmiş, işsizlik isə 17,3%-dən 4,2%-ə enmişdir.

Kənd yerlərində bu göstəricilər uyğun olaraq 92,8% və 94,1%, 7,2% və 5,9% olmuşdur. Analoji istiqamətdə dəyişikliklər həm şəhər, həm də kənd yerlərində əmək qabiliyyətli yaşlarda olan iqtisadi fəal kişi əhalisi arasında da yer almışdır.

Məşğulluq sahəsində gender bərabərliyini təmin edən əsas amillərdən biri təhsildir. Müasir istehsalatda istifadə olunan işçi qüvvəsinə təhsil səviyyəsi ilə bağlı artmaqda olan yüksək tələblər irəli sürülməkdədir.

**Cədvəl 3.**

**Azərbaycan Respublikasında işsiz əhalinin təhsil səviyyəsi və cins üzrə bölgüsü (yekuna və cins bölgüsünə görə, faizlə)**

| Təhsil üzrə | 2006 | | | | 2008 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Qadınlar | Kişilər | Cins bölğüsü | | Qadınlar | Kişilər | Cins bölğüsü | |
| | | | Qadınlar | Kişilər | | | Qadınlar | Kişilər |
| Ali təhsil | 6,8 | 9,6 | 39,7 | 60,3 | 5,1 | 17,8 | 16,1 | 83,9 |
| Natamam ali təhsil | 1,3 | 0,5 | 71,4 | 28,6 | - | - | - | - |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Orta ixtisas təhsili | 11,3 | 6,0 | 63,3 | 36,7 | 15,1 | 18,3 | 35,5 | 64,5 |
| Peşə təhsili | 2,8 | 5,3 | 32,6 | 67,4 | 3,0 | 3,5 | 36,5 | 63,5 |
| Ümum orta təhsil | 67,7 | 70,6 | 46,9 | 53,1 | 69,1 | 50,9 | 50,4 | 49,6 |
| Əsas təhsil | 9,4 | 7,3 | 54,4 | 45,6 | 7,7 | 9,5 | 35,1 | 64,9 |
| İbtidai təhsil | 0,6 | 0,6 | 47,6 | 52,4 | - | - | - | - |
| İbtidai təhsili olmayanlar | 0,1 | 0,1 | 50,0 | 50,0 | - | - | - | - |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 48,0 | 52,0 | 100,0 | 100,0 | 40,0 | 60,0 |
| Min nəfər | 194,2 | 210,5 | | | 104,5 | 156,9 | | |

Mənbə: Azərbaycanda qadınlar və kişilər, 2006, s.92; 2009, s.114.

Qeyd edək ki, bütün əhali arasında, xüsusilə onun işsiz hissəsi arasında ümumi orta təhsili olanlar əksəriyyət təşkil edir. Cins bölgüsünə gəldikdə isə diqqəti çəkən məqam ali təhsili və peşə təhsili olan qrupların hər birində kişilərin sayca üstünlük təşkil etməsidir.

Tədqiqatın **"Azərbaycanda məşğulluq sahəsində gender bərabərliyinin təkmilləşdirilməsinin əsas istiqamətləri"** adlanan üçüncü fəsilində məşğulluq sahəsində gender bərabərliyinin yaxşılaşdırılması amili kimi fasiləsiz təhsil, Azərbaycanda məşğulluq sahəsində gender bərabərliyinin yaxşılaşdırılması perspektivləri tədqiq edilir.

Məlumdur ki, təhsil alma müasir insanın əsas hüquqlarından biridir və bir çox ölkələrdə ömür boyu öyrənmə zərurət kimi qəbul olunur.

Azərbaycan Respublikasının prezidentinin sərəncamı ilə 22 may 2009-cu il tarixli "2009-2013 illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə dövlət proqramının" təsdiq edilməsi, 31 yanvar 2008-ci il tarixli "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiya ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamı, 2005-ci ilin mayın 19-da Norveçin Bergen şəhərində keçirilən konfransda Azərbaycanın rəsmən Boloniya sisteminə qoşulması, Nazirlər Kabinetinin 12 yanvar 2009-cu il tarixli 8 saylı qərarı ilə " Ali təhsilin bakalavr pilləsi ixtisaslarının (proqramlarının) siyahısının təsdiqi son illərdə ölkəmizdə ali təhsil sisteminin yaxşılaşdırılması üzrə böyük işlərin aparılmasını göstərir.

Bununla yanaşı ali təhsilin inkişafına hələ də mane olan bir sıra problemlər mövcuddur: bəzi hallarda kadr hazırlığı əmək bazarının tələbatı ilə uzlaşmır, kadr potensialının ixtisas səviyyəsi müasir tələblərə cavab vermir, elektron kitabxana və dərsliklər üzrə işlər ağır gedir və s.

“2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”nın reallaşması nəticəsində Azərbaycanın ali təhsil sistemi uğurla Avropa və dünya təhsil məkanına inteqrasiya edir və qlobal əmək bazarı sistemində ali təhsil müəssisələrində gender tarazlığı nəzərə alınmaqla rəqabətqabiliyyətli kadrların hazırlanması üçün kəsərli sistem formalaşır.

Bu gün Azərbaycandakı fasiləsiz təhsil sistemi varisliyi, çoxşahəliyi ilə fərqlənən, müxtəlif tədris formaları olan bütöv bir sistem kimi yenicə formalaşmaqdadır. Qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün təhsil sferasının, hökumətin, biznes aləminin və ictimaiyyətin nümayəndələrinin birgə və uzlaşdırılmış səyləri tələb olunur.

Fasiləsiz təhsil sferasının gender bərabərliyi baxımından inkişaf etdirilməsi təhsil alma imkanlarını məhdudlaşdıran maneələrin aşkar edilməsinə və əmək bazarında qadınların mövqeyinin dəyişdirilməsinə kömək edə bilər.

Gender bərabərliyinin təmin edilməsi problemi hər bir ölkədə dövlət proqramlarının işlənib hazırlanmasını və yerinə yetirilməsini tələb edir. Bu proqramlarda həmin ölkənin sosial-iqtisadi, demoqrafik, siyasi, dini, etnik və tarixi xüsusiyyətləri nəzərə alınmalıdır.

Son zamanlarda bütün dunyada olduğu kimi, Azərbaycanda da gender bərabərliyinin təmin edilməsi sahəsində müsbət dəyişikliklər baş vermişdir. Lakin görüləsi işlər də çoxdur. İlk növbədə qadın haqlarının müdafiəsinin gücləndirilməsinə ehtiyac vardır. Bu sahədə elə bir mexanizm yaradılmalıdır ki, qadınlar öz hüquqlarından daha yüksək səviyyədə yararlana bilsinlər. Gender bərabərliyinin yaxşılaşdırılması yolunda bir neçə mühüm istiqamətləri ğöstərmək olar: qadınlar öz hüquqları haqqında məlumatlandırılmalı, maarifləndirilməlidir; keçmişdən miras qalmış gender stereotiplər aradan qaldırılmalıdır; əhalinin həyat dəyər sisteminin formalaşmasında KİV və təhsilin təsiri gücləndirilməlidir; gender bərabərliyinin təmin edilməsində müsbət nəticələr əldə etmiş ölkənin təcrübəsi nəzərə alınmalıdır.

Beynəlxalq təşkilatlar əhalinin məşğulluq sferasında bərabərliyin təmin edilməsi üçün aşağıdakı strateji yolları müəyyən edir:

- ailə üzvlərinə qulluq edilməsində kişinin rolunun qəbul edilməsi;
- iş yerində görülən işlərin ailə vəzifələrinin yerinə yetirilməsi ilə daha da uzlaşdırılması;
- natamam iş vaxtının və ev şəraitində görülməsi üçün verilən işlərin şərtlərinin müvafiq olaraq tənzimlənməsi;

- ev və ailə vəzifələrinin daha ədalətli bölgüsünə nail olunması;
- ev işlərinin yüngülləşdirilməsi hesabına ailə yükünün azaldılması.

Aparılan tədqiqatın nəticəsi olaraq Azərbaycanda əhalinin məşğulluq sahəsində gender bərabərliyinə nail olmaq üçün bir nəticə və təkliflər işlənib hazırlanmışdır ki, onlardan ən mühümləri aşağıdakılardır:

- son illərdə respublikamızda hesablanan Gender Bərabərliyi İndeksi (GBİ) və Qadın səlahiyyətlərinin artırılması indeksinin səviyyələrinin yüksəlməsi müşahidə olunur və adı çəkilən ikinci indeks nisbətən daha yüksək templə artmışdır;
- 2000-2008-ci illər ərzində məşğul əhalinin artımı həm qadınların, həm də kişilərin artımı hesabına baş vermişdir. Həm iqtisadi fəal əhali arasında, həm də məşğul əhali arasında qadın və kişilərin 25-29 və 30-34 yaş qruplarının xüsusi çəkisi xeyli yüksəlmişdir;
- qeyri-dövlət sektorunda çalışanlar arasında kişilərin xüsusi çəkisinin artması, dövlət sektorunda isə əksinə, qadınların xüsusi çəkisinin yüksəldilməsi müşahidə olunur;
- 2008-ci ilin məlumatlarına əsasən İqtisadi qeyri-fəal qadınların 32,2%-i ev işlərinin yerinə yetirilməsi, uşaqlara və digər ailə üzvlərinə qulluq edilməsi ilə məşğul olmuşlar. Qeyd edək ki, əgər qadının ictimai təsərrüfatda işləməkdən tamamilə və ya müvəqqəti kənarda qalmasına ailənin imkanı çatırsa–bu məşğulluq sahəsində gender bərabərliyinin pozulması kimi qiymətləndirilməməlidir;
- müxtəlif ölkələr üzrə müqayisə göstərmişdir ki, ölkələr arasında Azərbaycan qadınları iqtisadi fəallıq səviyyəsinə görə yalnız Danimarkadan geri qalır.
- ölkələr üzrə iqtisadi fəallıq səviyyəsinin kişi və qadınlar arasında fərqlərin müqayisəsi göstərir ki, Azərbaycan əhalinin iqtisadi fəallıq səviyyəsində kiçik cinsi fərqləri olan ölkələr qrupuna aid olmuşdur;
- Azərbaycanda bütün əhali arasında və onun işsiz hissəsi arasında ümumi təhsil alanlar əksəriyyət təşkil edir;
- Azərbaycanda 15 yaşdan yuxarı qadın əhalisinin cəmi 0,6% -i, kişi əhalisinin isə 0,2% savadsızdır. Ölkələrarası müqayisə göstərir ki, Azərbaycan Respublikasının həm kişi, həm də qadın əhalisinin savadsızlıq səviyyəsi yetərincə aşağıdır;

– dövlət və qeyri-dövlət ali məktəb tələbələrinin ixtisas qrupları üzrə bölgüsünün təhlili göstərir ki, qadınların ən böyük say üstünlüyü təhsil ixtisasları üzrə (83,9%), təbiət elmləri qrupu (68,3%), səhiyyə ixtisasları (65,3%), humanitar və sosial elmlər qrupu üzrə (55,7%) qeyd olunmuşdur. Kişilərin ən çox üstünlük təşkil etdiyi ixtisas qrupu isə yerüstü nəqliyyat vasitələri və nəqliyyatın istismarı üzrə sahələrdə (88,9%), iqtisadiyyat və idarəetmə (77,2%), sosial-mədəni sahələrdə (76,2%) müşahidə olmuşdur. Ölkənin ali məktəblərində təhsil alanların cins bölgüsündə müəyyən edilən fərqlər gender asimmetriyasının təzahürüdür, ancaq bu heç də təhsildə, daha sonra isə məşğulluqda gender bərabərliyinin pozulması mənasına gəlmir.

– ali məktəblərdə professor-müəllim heyətinin vəzifə strukturunun və ümumtəhsil müəssisələrinin rəhbər işçilərinin cins bölgüsünün təhlili qadınların yüksək vəzifələrdə təmsilçiliyinin aşağı səviyyədə olduğunu göstərir. Bu hal elm sahəsində, Milli Məclisin cinsi tərkibində də öz əksini tapır.

- təhsil sistemi ilə əmək bazarı arasında əlaqələndirici mexanizm yaradılmalıdır;
- artmaqda olan əhalinin bərabərsizliyi qarşısında təhsil xərcləri sahəsində yoxsul ev təsərrüfatının dəstəklənməsinə yönəlmiş xüsusi dövlət proqramları işlənib-hazırlanmalıdır;
- işçilərin ixtisas səviyyəsinin yüksəldilməsi üzrə qısa müddətli sistemin inkişafına xüsusi diqqət yetirilməlidir (xarici dillərin, kompüterlərdən və internetdən istifadənin öyrədilməsi və s.);
- hökumət məşğulluq sahəsində bərabər imkanların yaradılmasına nəzarət edə biləcək dövlət idarəsini müəyyən etməlidir;
- Azərbaycanda gender bərabərsizliyinin hərtərəfli təhlili yoxsulluğun azaldılması və iqtisadi inkişaf siyasətinin ayrılmaz hissəsi olmalıdır;
- infrastrukturun keyfiyyəti yaxşılaşdırılmalıdır (yolların inkişafı, yeni bazarlar, suyun təmizlənməsi, su təchizatının və irriqasiyanın yaxşılaşdırılması, telekommunikasiya xətlərinin modernizasiyası, təhsil, səhiyyə və mədəniyyət obyektlərinin bərpası).

**Dissertasiya işinin məzmunu üzrə müəllifin aşağıdakı elmi əsərləri dərc olunmuşdur:**


1. Рзаева С.С. Гендерное равенство в области занятости // Вопросы гуманитарных наук, №2, 2009, Москва, стр. 73-77.
2. Rzayeva S.S. Azərbaycanda qadın məşğulluğunun aktual problemləri. Elmi əsərlər №3, 2009, AMEA İqtisadiyyat İnstitutu, Bakı: 2009, səh. 256-261.
3. Rzayeva S.S. Demoqrafik proseslər və əhalinin inkişafı problemləri. Modernləşmə və sosial-iqtisadi inkişafın regional problemləri mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı: 2009, səh. 406-408.
4. Rzayeva S.S. Qərb qəribəliyi yoxsa Şərqin şəraiti. Sosial-siyasi problemlər (Elmi-nəzəri jurnal) №2 (22), 2009, AMEA Fəlsəfə, sosiologiya və hüquq institutu, Bakı: 2009, səh. 92-104.
5. Rzayeva S.S. Təhsil və gender. Elmi əsərlər №1, 2009, AMEA İqtisadiyyat İnstitutu, Bakı: 2009, səh. 366-370.
6. РзаеваС.С. Гендерное равенство и занятость женщин в Азербайджане.
   Материалы международной научно-практической конференции "2-й Белорусский Инновационный форум» (18-19 ноябрь 2010 г., Минск, Беларусь.) Стр 92-97.

## Севиндж Сабир кызы Рзаева
## Обеспечение гендерного равенства в области занятости (на примере Азербайджанской Республики)


**Резюме**

Диссертационная работа состоит из введения, трех глав, выводов и предложения и списка использаванной литературы.

Во введении обосновывается актуальность темы, изложены степень изученности проблемы, цель и задачи исследования, его научная новизна и практическая значимость, теоретические и методологические основы, объект исследования, информационная база, апробация работы.

В первой главе, посвященной исследованию теоретических и практических аспектов обеспечения гендерного равенства в области занятости даны теоретические основы изучения занятости мужчин и женщин, изучению обеспечения гендерного равенства в области занятости в различных странах, раскрыты особенности гендерной проблемы в области занятости в Азербайджане.

Во второй главе диссертации, проведен анализ занятости населения и её регулирования в Азербайджане. При этом всесторонне анализирован гендерный аспект государственного регулирования трудовой активности населения в нашей республике, а также детально исследовано состояние гендерного равенства в области занятости населения.

В третьей главе исследованы основные направления совершенствования гендерного равенства в области занятости в Азербайджане. В этой связи в диссертационной работе изучено непрерывное образование как фактор улучшения гендерного равенства в области занятости и раскрыты перспективы улучшения гендерного равенства в области занятости в Азербайджане.

В заключении даны выводы и предложения, разработанные автором в процессе исследования проблемы обеспечения гендерного равенства в области занятости в Азербайджанской Республике.

**Sevinj Sabir kızı Rzayeva**
**Ensuring gender equality in employment**
**(the example of the Republic of Azerbaijan)**

## RESUME

The thesisi consists of an introduction, there chapters, conclusions and suggestions, and the list of literature.

In the introduction the relevance of the topic, set out the degree of scrutiny of the problem, purpose and objectives of the study, its scientific novelty and practical importance theoretical and methodological framework, the object of recearch, information base, probation work.

In the fist chapter,devoted to the study of theoretical and practical aspects of gender eguality in employment are the theoretical foundations for the study of employment for men and women the study of gender eguality in emloyment indifferent countries, revealed features of gender issues in emloyment in Azerbaijan.

In the second chapter of the thesis, an analysis of emloyment and its regulation in Azerbaijan as the same time to fully analyze the gender dimension of state regulation of labor activity of the population in our cuntry, and also studied in detail the state of gender eguality in employment.

In the third chapter examined the basic directions of improving gender eguality in employment in Azerbaijan.

In this regard, the thesis examined continning education as a factor in improving gender eguality in employment and improving the prospects revealed gender eguality in emloyment in Azerbaijan.

In conclusion, given the findings and proposals developed by the anthor in the process of studying the problem of gender eguality in employment in the Azerbaijan Republic.

**Национальная Академия Наук Азербайджана
Институт Экономики**

*На правах рукописи*

**Севиндж Сабир кызы Рзаева**

# Обеспечение гендерного равенства в области занятости (на примере Азербайджанской Республики)

**Специальность: 5308.01- “Общая экономика”**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по экономике**

**Баку - 2013**